بسم الله الرحمن الرحيم

14 məsumun (ə) həyatı

# İmam Məhdi (əc)



Kitabın adı: İmam Məhdi (əc)
Tərcümə edən: Seyyid Zahir Cavadov
Çap tarixi: 2018
Çap növbəsi: Birinci
Tiraj: 1000

Издательство «Свет»
Типография «Махаон», 2018

ISBN 5-18-140518-3



Adı: Məhəmməd
Məşhur ləqəbləri: Məhdi, İmamul-əsr, Sahibəz-zaman, Bəqiyyətullah, Qaim
Atası: İmam Həsən Əskəri (ə)
Anası: Nərcis-xatun (Nərgiz)
Doğum tarixi: 255-ci hicri-qəməri ili, 15 şəban
Doğulduğu yer: Samirra



## Təvəllüdü

Nəhayət, 255-ci hicri qəməri ili, şəban ayının 15-də Allahın son höccət və vəlisi on ikinci məsum həzrət imam Məhdi (əc) dünyaya gəldi. O həzrətin atası imam Həsən Əskəri (ə), anası isə Nərcis xanımdır. Nərcis xanımın fəzilət və mənəviyyatı o dərəcədə yüksək olmuşdur ki, özü imamət silsiləsinə mənsum qadınlarlar arasında fəzilət sahibi olan imam Hadinin (ə) bacısı Həkimə xanım onu (Nərcisi) öz nəslinin ən fəzilətli xanımı, özünü isə onun qulluqçusu adlandırmışdır.

## Nərcis-xatun həzrət İsanın (ə) vəsisi Şəmunun nəvəsidir

İmam Zamanın (əc) anası ata tərəfdən Şərqi Roma imperatorunun oğlu Yəşuanın qızı, ana tərəfdən isə Şəmunun nəvəsidir. Şəmun özü həzrət İsanın (ə) yaxın sirdaşlarından və həm də vəsisi olmuşdur. Nərcis sarayda, imperator ailəsində dünyaya gəlməsinə və boya-başa çatmasına baxmayaraq, fərqli həyata malik idi. O, çox iffətli və pak bir qız idi. Sanki heç bu ailədə yaşamırdı. Anası tərəfinə oxşayaraq Şəmun kimi ömür sürmüş, həzrət Məryəm kimi səfa-səmimiyyətə, mənəviyyata və xüsusi nəcibliyə malik olmuşdur. Odur ki, təmtəraqlı imperator ailəsi ilə qaynayıb, qarışmazmış. Həmişə arzu edərdi ki, pak və təqvalı bir ailədə yaşasın. Beləliklə, Allah onu istəyinə çatdıraraq yer üzünün ən müqəddəs ailəsinə qovuşdurdu.



## Nərcis-xatunun əhvalatı

Həzrət Hadinin (ə) etibarlı xidmətçilərindən olan Büşr deyir:
İmam Hadi (ə) məni yanına çağırıb, buyurdu: “Elə bu gün Bağdada yola düş.” Dedim: Baş üstə. İtaətə hazıram.
Daha sonra həzrət (ə) bir məktub yazıb, imzaladı və bir kisə qızıl sikkə ilə birgə mənə verib, buyurdu: “Bunları götür, tez Bağdada yola düş. Üç gündən sonra Dəclə çayının sahilinə çatıb, orada gözlə. Dəclə körpüsünün yanına bir gəmi gələcək. Gəmidə Romadan satılmaq üçün gətirilmiş çoxlu müharibə əsiri olacaq. Əsirlərin sahibinin onları gəmidən düşürüb, satışa qoyduğunu görəcəksən. Həmin gəmidə ipək paltar geyinmiş, heç kimə baxmayan və özünü heç kimə göstərmək istəməyən bir qız vardır. Ona görə də heç kim onu almaq istəmir. Dərhal irəli gedib, məktubu ona ver və de ki, məktubu oxusun. Sonra de: “Əgər xanım bu məktubun sahibinə meyl edirsə, onu alıram.” O, məktubu oxuyandan sonra sevinəcək. Sən onu sahibindən alıb, gətirərsən.”
Büşr, imam Hadinin (ə) tapşırığı üzrə özünü müəyyən olunmuş gün Bağdada yetirərək səhər tezdən həmin körpünün yanına getdi. O, burada gəmilərin körpüyə çatdığını və kənizlərin satışa qoyulduğunu müşahidə etdi. Bu zaman imamın buyurduğu xüsusiyyətlərə uyğun kənizi gördü. Müştərilər onu almağa can atsalar da o, onların kənizi olmağa meylli deyildi. Büşr irəli gəlib, məktubu ona verdi. Qız məktubu oxuyarkən ixtiyarsız əhvalı dəyişdi və gözləri yaşardı. Sevincdən qəhər boğazını tutduğu halda sahibinə dedi: “Məni bu məktubun sahibinə sat. Əgər bu işi etməsən, mən özümü öldürəcəyəm!” Kənizlərin sahibi onun təkidini görəndə qiyməti barədə Büşrlə söhbətə başladı. O, imam Hadinin (ə) göndərdiyi kisədəki həmin pulla razılaşandan sonra onu mənə təhvil verdi.
Xülasə, onunla birgə oranı tərk edib, yola düşdük. O, yol boyu tez-tez məktubu çıxarıb, öpür, gözlərinə sürtərək qəhərlənirdi. Mən təəccüblənib, dedim: Sən ki, məktub sahibini tanımırsan, niyə onu bu qədər öpüb, bağrına basırsan? Dedi ki, mən mövlamı yaxşı tanıyı-

ram! Əgər istəsən, onu necə tanıdığımı sənə danışaram.
Dedim: Məmnuniyyətlə eşitmək istərdim.
O, dedi: Mənim adım Məleykədir (Malika) və Roma imperatoru Yəşuanın qızıyam. Babam həzrət İsanın (ə) yaxın adamlarından olub. Anam isə Şəmunun övladlarındandır. Bir il öncə atam məni öz qardaşı oğluna vermək istəyirdi. Bir gün sarayda təntənəli yığıncaq təşkil edib, qardaşı oğlu ilə məni birlikdə taxtda oturtmuşdu. Xristianların böyükləri məni ona ərə vermək üçün yığışmışdılar. Tanınmış məsihi rahiblər gələrək dua oxudular. Nikah mərasimini başlamaq istəyəndə zəlzələ baş verdi, saray titrədi. Hər kəs taxtın üstündə oturmuşdusa, yerə yıxıldı. İmperatorun özü və qardaşı oğlu da gözümün qabağında taxtdan yerə yıxıldılar. Orada olanları qorxu bürüdü. Böyük keşişlərdən biri imperatorun hüzuruna gəlib dedi: Bu təəccüblü hadisə Allahın qəzəb və bəla nişanəsi, mərasimin sona yetməsinə əlamətdir. Bizə icazə versəydiniz, gedərdik. Atamın göstərişi ilə ikinci dəfə yığıncaq təşkil etdilər, lakin yenə eyni hadisə baş verdi. Xristianların böyükləri bu işin nəhs olduğunu söyləyib saraydan çıxıb getdilər. O gecə mən narahat və ruhdan düşmüş bir halda yatmışdım. Yuxuda gördüm ki, həzrət Məsih (ə), Şəmun və bir neçə digər dostu ilə birlikdə mənim yanıma gəliblər. Birdən bir neçə nəfər də gəldilər. Həzrət Məsih (ə) onları görən kimi ehtiram üçün ayağa qalxdı. Hamı təəccüb etdi. Həzrət Məsih (ə) dedi: “Bunlar mənim əziz qonaqlarımdır. Onlardan hamıdan irəlidə gələn və üzündən nur yağan Allahın sonuncu peyğəmbəri həzrət Məhəmməddir (s). Onun ardınca gələn isə Məhəmmədin (s) kürəkəni və canişini Əlidir (ə). Əlinin (ə) ardınca gələnlər də onun övladlarıdır.”
İslam Peyğəmbəri (s) həzrət Məsihə (ə) çatdıqda belə buyurdu: “Ey Ruhullah! Biz bura şahın qızı Məleykəni Şəmundan oğlum Həsən Əskəriyə (ə) almaq üçün gəlmişik.” Həzrət Məsih (ə) sevinərək soruşdu: “Övladlarından hansı birisi üçün?” Həzrət Məhəmməd (s) övladlarından ən gəncini göstərib, dedi: “Ardıcıllarımın on birinci imamı



oğlum Həsən Əskəri üçün."
Mən bu vaxt həzrət Məhəmmədin (s) göstərdiyi cavana baxdım. Çox gözəl və nurlu bir oğlan idi. Sanki çoxdandır ki, onu tanıyırdım. Bir baxışla məhəbbəti qəlbimə doldu. Belə ki, gözümü ondan çəkə bilmədim.
Həzrət Məsih (ə) atam Şəmuna dedi: "Həqiqi səadət sənə üz gətirib. Elçiliyi qəbul et və özünü Məhəmmədin (s) ailəsi ilə qohum et." Atam bu təklifdən çox sevindi və dedi: "Qəbul edirəm."
Bu vaxt həzrət Məhəmməd (s) xütbə oxudu və məni mövlam imam Həsən Əskəriyə (ə) əqd etdi.
Mənim sevincimin həddi-hüdudu yox idi. Şövqümün şiddətindən yuxudan ayıldım. Yuxudan ayıldıqdan sonra sevincim üzümdə hiss olunurdu. Artıq qabaqkı qəm və narahatlığımdan əsər-əlamət yox idi. Bu yuxunu atama necə danışacağım barədə düşünürdüm. Qorxurdum ki, inanmasın. Ona görə də yuxumu heç kəsə danışmadım. İmam Həsən Əskərinin (ə) məhəbbəti bütün qəlbimi bürümüşdü. Yalnız onun barəsində fikirləşirdim. Axırda xəstələnib yatağa düşdüm. Mənim müalicəm üçün bütün həkimləri gətirdilər. Ancaq onların müalicəsi nəticəsiz qaldı. Hər gün otağımda tək oturur və gördüyüm yuxu barədə fikirləşirdim.
Həmin günlərdə atam müsəlmanlarla müharibə etmək üçün şəhərdən kənara çıxmışdı. Müharibə çox uzun çəkdi. Mən atamın həzrət Məhəmmədin (ə) ardıcılları ilə müharibəyə getməsini bilirdim. Nəhayət, atam müharibədən qayıtdı və məni görməyə gəldi. Mehribanlıqla əhvalımı soruşdu. Mənim vəziyyətimi görəndə çox narahat oldu.
O məndən soruşdu:
"Sənin bir arzun varmı ki, onu yerinə yetirim?" Bir az fikirləşdikdən sonra dedim: "İstəyirəm ki, döyüşdə əsir düşmüş müsəlmanları azad edəsən. Bəlkə, bu yaxşı işə görə həzrət Məsih (ə) və anası Məryəm (ə) mənə lütf və mərhəmət edələr, şəfa tapam."
Atam xahişimi qəbul edib onları azad etdi və səhəri gün mənim halım bir az yaxşılaşdı. Bu hadisədən bir müddət ötmüşdü. Bir gecə yatdım və yuxuda gördüm ki, atam nura qərq olub. Birdən mənim namaz qıldığım mehrabın qapıları açıldı və müqəddəs Məryəm içəri daxil oldu. Mənə yaxınlaşıb qucağına aldı. Sonra başıma bir gül tacı qoydu və məni özü ilə birlikdə böyük saraya apardı. Burada bir nurani qadın oturmuşdu. Müqəddəs Məryəm ona tərəf getdi və onu qucaqlayıb üzündən öpdü. Sonra üzünü mənə tutub dedi: Ey Məleykə, bu xanım Allahın sonuncu peyğəmbərinin qızı və sənin həyat yoldaşının anası həzrət Fatimədir. Mən onu görməyimə çox sevindim. Onun ətəyindən tutub dedim: Ey xanım! Mən sənin oğlun Həsən Əskəridən (ə) gileyliyəm. O, məni özünə aşiq etmişdir, ancaq məni görməyə gəlmir. Mən ondan ayrı olduğuma görə xəstəliyə düşmüşəm. Daha ağlamaq mənə aman vermədi və bərkdən ağlamağa başladım. Həzrət Fatimə (ə) əlini başıma çəkib buyurdu: "Nə qədər ki, sən İslamı qəbul etməmisən, oğlum sənin sorağına gəlməyəcək. Əgər Allah və həzrət Məsihin (ə) səndən razı qalmasını istəyirsənsə, İslam dinini qəbul et, gözlərin imam Həsən Əskərinin (ə) camalını görməklə işıqlansın."
Mən dedim: Ey möhtərəm xanım! Bütün vücudumla İslamı qəbul etməyə hazıram."
Xanım (ə) buyurdu: "De, əşhədu ənla ilahə illəllahu və əşhədu ənnə Muhəmmədən (s) rəsulullah."
Bu vaxt həzrət Fatimə (ə) məni məhəbbətlə bağrına basıb nəvaziş etdi və buyurdu: "Sevin! Sənə müjdə verirəm ki, bundan sonra imam Həsən Əskəri (ə) görüşünə gələcək və sən onun ziyarətinə nail olacaqsan!"
Yuxudan oyandım. Çox sevindim. Daim Allahın birliyinə və Məhəmmədin (s) peyğəmbərliyinə şəhadəti dilimə gətirirdim.
İmam Həsən Əskərinin (ə) intizarında idim. Bir anlığa gözümü yumdum. Elə bu vaxt gördüm ki, imam Həsən Əskəri (ə) görüşümə gəlib. Onunla görüşdən çox sevindim. Gileyləndim ki, niyə mənim görüşümə gəlmirdin? Mənim qəlbim sənin məhəbbətinə qərq olmuşdu. O buyurdu: "Ayrılığa səbəb bu idi ki, sən İslam dinində deyildin. Bundan sonra Allah səni zahirdə mənim həyat yoldaşım edənə kimi görüşünə gələcəyəm."

Bundan sonra hər gecə onu yuxuda görürdüm. Artıq sağalmışdım və çox yaxşı əhval-ruhiyyədə idim.

Bir gecə də o, yuxuda görüşümə gəldikdə belə buyurdu: “Ey Məleykə! Tezliklə müsəlmanlarla romalılar arasında döyüş olacaq. Atan qoşunla birlikdə şəhərdən kənara çıxacaq. Sən xidmətçi geyimi geyin və onlarla birlikdə get. Bu döyüşdə müsəlmanlar qələbə çalıb sizi əsir götürərək, sonra da satmaq üçün Bağdada gətirəcəklər. Gəmi Fəratın sahilində dayanacaq və səni satmaq üçün gəmidən çıxaracaqlar. Səni almaq üçün bir neçə müştəri gələcək, amma sən gözlə, atam tərəfindən bir məktubla səni alacaq bir şəxs gələcək.”

Yuxudan ayıldıqdan sonra mövlamın dedikləri barədə düşünürdüm. Bir neçə gündən sonra müharibə olacağı barədə xəbərlər hər yerə yayıldı. Mövlamın dediyi kimi ordu şəhərdən kənara çıxdı. Mən də xidmətçi geyimində onlarla birlikdə getdim. Bu döyüşdə əsir düşdüm və ey Büşr, indi səninlə birlikdə mövlamın görüşünə gedirəm.



### İmam Həsən Əskəri (ə) evi nəzarət altında

Zülmkar Abbasi xəlifəsi Mötəmid imam Həsən Əskərinin (ə) evini ciddi nəzarət altında saxlayırdı. Ona görə də imam Həsən Əskəri (ə) oğlu Məhdinin (əc) dünyaya gəlməsini gizli saxlamağa məcbur idi.



Bunula belə, o həzrət şiələrin arxayın olmağı və həzrət Məhdinin (əc) dünyaya gəlişindən xəbərdar olmaları üçün bəzən onu ən yaxın səhabələrinə göstərərdi.

## Əhməd ibn İshaqın həzrət Məhdini (əc) görməsi



Əhməd ibn İshaq Əşəri Qumi, imam Həsən Əskərinin (ə) ən yaxın və ən səmimi dostlarından və Qumda nümayəndəsi idi. O deyir: İmam Həsən Əskərinin (ə) yanına gedib, ondan sonrakı imam barədə soruşmaq istəyirdim. Mən sual verməzdən qabaq o həzrət üzünü mənə tutub buyurdu: “Ey Əhməd ibn İshaq! Allah-taala həzrət Adəmi yaratdığı gündən Qiyamət gününə qədər yer üzünü bir an olsun belə, ilahi höccətsiz (rəhbərsiz) qoymayıb və qoymayacaq. Allah həmin höccətin hesabına yer üzündəki bəlanı dəf edərək camaata rəhmət yağışı göndərir və yerin alt təbəqələrində gizlənmiş nemətləri üzə çıxarır.”

Mən ona dedim: Sizdən sonra imam kim olacaq?

Həzrət qalxıb o biri otağa keçdi və çox çəkmədi ki, qucağında siması on dörd gecəlik ay parçası kimi parıldayan təxminən üç yaşlı bir uşaqla geri döndü. Sonra isə mənə buyurdu: “Əhməd, əgər Allah və imamlar yanında hörmətin olmasaydı, bu oğlumu sənə göstərməzdim. Onun adı Peyğəmbərin (s) adından, künyəsi Peyğəmbərin (s) künyəsindəndir. Dünya zülm və haqsızlıqla dolduğu zaman o gəlib hər tərəfi haqq-ədalətlə dolduracaq. O, (uzunömürlü olması baxımından) bu ümmət arasında Xızr və Zülqərneyn kimi olacaq. O, uzunmüddətli qeybə çəkiləcək və bir çoxları (qeyb dövrünün həddən artıq uzun çəkəcəyinə görə) bu barədə şəkk edəcək, təkcə Allahın onun imamətinə möhkəm əqidədə saxladığı və onun zühurunun tez baş verməsi haqqında dua etməyə nail olan şəxslər azğınlıqdan qurtaracaqlar.”

Dedim: Bunun üçün elə bir əlamət vardırmı ki, ürəyim əminliklə dolsun?

Bu vaxt o uşaq ərəb dilində açıq-aydın danışaraq buyurdu: “Mən, Allahın yer üzündə sabit qalmışı, Allahın düşmənlərindən intiqam alanam...”



## İmam Həsən Əskərinin (ə) canişini

Həsən ibn Əyyub ibn Nuh deyir:
İmam Həsən Əskəridən (ə) sonrakı imamın kim olacağı barədə soruşmaq üçün o həzrətin yanına getdik. Biz qırx nəfər idik. (Sonradan imam Məhdinin (əc) xüsusi naiblərindən biri olmuş) Osman ibn Səid Əmri ayağa qalxıb dedi: "Sizin məndən daha yaxşı bildiyiniz bir məsələ barədə soruşmaq istəyirəm." İmam buyurdu: "Heç kim məclisdən durub getməsin." Buna görə də, kimsə bayıra çıxmadı. Bir qədər ötdükdən



sonra imam Əskəri (ə) Osman ibn Səidi səsləyib buyurdu: "İstəyirsiniz, bura niyə gəldiyinizi deyim?" Hamı "Buyurun!" – deyə cavab verdi. İmam buyurdu: "Bura məndən sonra kimin imam olacağı barədə soruşmaq üçün gəlmisiniz." Hamı dedi: Bəli. Bu vaxt ay kimi nurlu və simasından imam Həsənə (ə) bənzəyən bir oğlan (uşağı) məclisə daxil oldu. İmam Həsən Əskəri (ə) ona işarə edərək buyurdu: "Bu, məndən sonra sizin imamınız, mənim sizin aranızdakı canişinimdir. Onun əmrinə tabe olun və məndən sonra ixtilaf yaratmayın. Yoxsa özünüz həlak, dininiz isə məhv olar."

## İmamın qeybə çəkilməsinin səbəbləri

**Birinci səbəb**: O dövrə hakim olan çətin şərait bais oldu ki, 260-cı ildə imam Həsən Əskərinin (ə) şəhadətindən sonra həzrət Məhdi (əc) qeybə çəkilərək gözlərdən gizlin qalsın.
Həzrət Məhdinin (ə) iki qeyb dövrü vardır: Biri 260-cı ildən 329-cu ilədək olan qısa müddətli (qeybəti-süğra) qeyb dövrü, biri də bundan sonra başlayan uzun müddətli (qeybəti-kübra) qeyb dövrü. Bu dövr indiyə kimi davam etməkdədir.
Doğrudur ki, İmam Zamanın (əc) qeybə çəkilməsinin bütün sirləri bizə məlum deyil, ancaq İslami qaynaqlara və rəvayətlərə diqqət etdikdə bu məsələ üçün üç əsas səbəb görünür.
İmamlar, camaatı düz yola hidayət etmək üçün seçiliblər. İnsanlar

əgər onların göstərişlərinə əməl etsələr, kamalın son həddinə və səadətə yetişərlər. Ancaq onların göstərişlərinə etinasızlıq etsələr və dünyaya bağlansalar, onda Allah tərəfindən təyin edilmiş rəhbərdən faydalana bilməyəcəklər.

Digər tərəfdən də imamların, xüsusilə də, İmam Cavaddan (ə) sonrakı imamların zamanındakı təzyiqlər məsum imamların ictimai fəaliyyətlərini son dərəcə azaltdı və nəticədə cəmiyyət imamların rəhbərliyindən istədikləri kimi faydalana bilmədi. Buna görə də, cəmiyyət lazımi hazırlığı tapana qədər Allah-taala on ikinci imamın qeybə çəkilməsini məsləhət bilmişdir.



**İkinci səbəb**: Bildiyimiz kimi Allahın qoyduğu  sabit qanunauyğunluqlardan biri də, bəndələri sınağa çəkib, pak və saleh insanları seçməkdir. Həyat daim imtahan və sınaq səhnəsi olduğundan, bəndələr bu yolla iman və səbirləri sayəsində və özlərini Allahın əmrlərinə təslim etməklə tərbiyə olunaraq kamala yetişməli və onların gizli istedadları çiçəklənməlidir.

Həzrət Məhdinin (əc) qeybdə olduğu müddətdə insanlar sınağa çəkilir. İman və əqidəsi möhkəm olmayan şəxslərin iç üzü aşkar olaraq şəkkə düçar olur, lakin iman və əqidəsi möhkm şəxslər o həzrətin zühurunun intizarı və çətinliklərə sinə gərməklə əqidələri daha da möhkəmlənir, Allahın daha böyük mükafatlarına layiq görülürlər.

Üçüncü səbəb: Allah-taala on ikinci imamı qeybə çəkməklə onu zülmkarların əli ilə öldürülməkdən qurtarmışdır. Çünki əgər o həzrət ömrünün ilk günlərindən camaatın arasında olsaydı, onu mütləq öldürəcəkdilər. Bu əsasla, Allahın əmri ilə münasib bir zamanda zühur etməlidir ki, ilahi vəzifələrini və uca məqsədlərini həyata keçirməyə nail ola bilsin.

Zürarə deyir: İmam Sadiq (ə) buyurdu: “Gözlənilən imam qiyam etməzdən qabaq bir müddət gözlərdən qeybə çəkiləcək” Bunun səbəbini soruşduqda imam buyurdu: “Çünki canı təhlükədə olacaq.” (Çünki dünyanın hər yerində İslam hökuməti qurmaq üçün diri qalmalıdır.)

## Qeyb dövründə bizim vəzifəmiz



Qeyb dövründə imam Məhdinin (əc) zühurunun intizarında olanların bir sıra vəzifələri vardır və onların arasında on vəzifənin daha önəmli olduğu nəzərə çarpır:

1. Peyğəmbər (s) və Əhli-beyt (ə) vasitəsilə bizə çatmış xalis İslam göstərişlərinə əməl etmək;
2. İmam Zamanın (əc) naibini dəstəkləmək və hər bir göstərişini yerinə yetirmək;
3. Fitnə yaradan hadisələr qarşısında dayanmaq, zülmkarlarla mübarizə;
4. İslam əxlaqına yiyələnmək, fəsadla mübarizə;
5. İmanlı olmaq, Allaha təvəkkül etmək və hər zaman İmam Zamanın (əc) zühuru üçün dua etmək;
6. Ata-anaya və böyüklərə hörmət, onların qayğısına qalmaq;
7. Yoxsullara yardım etmək;
8. Müsəlmanlarla vəhdət və dostluğu qoqorumaq;
9. Böyük elmi və dini irəliləyişlərə nail olmaq üçün çalışmaq;
10. Dünyanın hər yerində islami cəmiyyət yaratmaq üçün tədbir görmək.

Qeyb dövründə biz vəzifələrimizi düzgün yerinə yetirsək, özümüzü həzrət Məhdinin (əc) zühuruna yaxınlaşdırarıq. İslam Peyğəmbəri (s) həzrət Məhdinin (əc) qeyb dövründə yaşayanlar barədə öz səhabələrinə buyurdu: “Tezliklə bir dəstə gələcək ki, onların hər birinin savabı sizin əlli nəfərinizin savabına bərabər olacaq.”



Səhabələr soruşdular: Ey Allahın rəsulu! Biz səninlə birlikdə Bədr, Ühüd və Hüneyn döyüşlərində iştirak etmədikmi? (Bəs, onlar bizdən necə üstün ola bilərlər?)

Peyğəmbər (s) buyurdu: “Əgər onların dövründəki baş verəcək hadisələr sizə üz versəydi, onlar kimi səbir edə və müqavimət göstərə bilməzdiniz.”



## İmam Məhdinin (əc) tərəfdarlarının xüsusiyyətləri

Həzrət Məhdinin (əc) öz qiyamını yerinə yetirmək və qələbə qazanmaq üçün yanında dostları olacaqdır. Bütün peyğəmbərlərin və övliyaların da qiyamında vəfalı və imanlı dostların böyük rolu olmuşdur.

Burada imam Məhdinin (əc) sirdaşlarının xüsusiyyətlərindən bəzilərinə işarə edirik:

Allah-taala Qurani-kərimdə buyurur: “Ey iman gətirənlər, sizdən kim öz dinindən dönsə (Allaha bir ziyan vurmaz), Allah tezliklə bir dəstəni gətirər (ki, onların aşağıdakı xüsusiyyətləri vardır:)

1. Allah onları sevir və onlar da Allahı sevir;
2. Möminlərin qarşısında ram və təvazökardırlar;
3. Kafirlərin qarşısında isə qüdrətli və qalibdirlər;
4. Allah yolunda cihad edir və heç bir tənə vuranın tənəsindən qorxmurlar.

Bu xüsusiyyətlərə diqqət etməklə demək olar ki, həzrət Məhdinin (əc) dostları zülmkarlar və fəsad edənlər qarşısında dayanacaq, həzrət Məhdinin (əc) dünyada ədalətli hökumət qurması üçün cihad və təlaş edəcəklər. İmam Sadiq (ə) həzrət Məhdinin (əc) dostlarını belə təsvir edir: “Onlar o kəslərdir ki, dəmir dağları aşarlar və onları parça-parça edərlər, Allah razı olana qədər qılınclarını yerə qoymazlar (Onlar çox mehribandırlar, ancaq Allahın düşmənləri qarşısında son nəfəslərinə qədər dayanarlar və şücaətlə döyüşərlər).”



## İnsan min ildən artıq yaşaya bilərmi?

İmam Məhdi (əc) 255-ci hicri-qəməri ilində dünyaya gəlmişdir və indiyə kimi o həzrətin ömründən qəməri tarixilə 1184 il ötür. İnsan bu qədər uzun ömür sürə bilərmi?

Bunun cavabında deyə bilərik ki, bütün insanları yaradan Allah, onların xoşbəxtlik və səadətinin nədə olduğunu daha yaxşı bilir. Digər tərəfdən də alimlər qocalıq və ölümün ən önəmli səbəbini münasib olmayan və zərərli qidalanma və davranışlar olduğunu sübut edirlər.

Müasir tədqiqatlar göstərir ki, insanlar üç yüz ildən çox yaşaya bilərlər. Bu fakt bəzi bitki və heyvanların üzərində sınaqdan keçirilərək onların ömürlərinin artması mümkün olmuşdur. Ona görə də elmi baxımdan insanın uzun ömür sürməyini inkar etmək olmaz.

Bunlardan əlavə Quran və tarix keçmiş peyğəmbərlərin və camaatdan bəzilərinin uzun ömrünü açıq aydın bizə göstərməkdədir. Həzrət Nuh (ə) 2500 il, həzrət Adəm (ə) 930, Loğman (ə) 400 il yaşamışdır.



## Zühurun əlamətləri

1. Süfyani adında bir şəxs qiyam edəcək, insanları qorxuya salacaq və çoxlu qətliamlar törədəcək;
2. Həzrət Məhəmmədin (ə) nəslindən olan bir cavan şəxs Allah evinin yanında Rükn və Məqam arasında qətlə yetiriləcək;
3. Səmadan səs eşidiləcək. Bu səs həzrət Qaimin (əc) adını fəryad edəcək və yer üzündə şərqdən qərbə qədər bütün insanlar – istər oyaq olsun, istərsə də yatmış – bu səsi eşidəcəklər.
4. Məkkə və Mədinə arasındakı Beyda adlı məntəqə yerin daxilinə batacaq. Süfyaninin ordusu Beyda çölünə çatan zaman səmadan bir nida gələcək: "Ey Beyda çölü, onları məhv et!"
Bundan sonra səhra onlardan üç nəfərdən başqa ordunun hamısını udacaqdır. O üç nəfərin də üzləri arxa tərəfə çevriləcək.



## Zühurdan sonrakı dövr

O dövrdə insanlar bir-birlərinə o qədər mehriban və səmimi olacaqlar ki, bir-birlərinin ehtiyaclarını aradan qaldırmaq üçün yarışacaqlar. Heç bir qrup və tayfa özünü başqasından üstün hesab etməyəcək. Camaat dünyapərəstlikdən əl çəkəcək, qüdrət və şöhrət ardınca olmayacaq. Tamah və həsədlə yaşamayacaq. Heç kəs bir başqasına qarşı zor işlətməyəcək, yalan, töhmət olmayacaq, günah məclisi qurulmayacaq.
Hamı birgə mövlamız həzrət imam Qaimin (əc) zühuru üçün dua edəyin, əməllərimizi o həzrətin göstərişlərinə uyğunlaşdırağın və sübh namazından sonra həzrətə mənsub "Əhd" duasını oxuyağın.



Həzrət Məhdinin (ə) iki qeyb dövrü vardır: Biri 260-cı ildən 329-cu ilədək olan qısa müddətli (qeybəti-süğra) qeyb dövrü, biri də bundan sonra başlayan uzun müddətli (qeybəti-kübra) qeyb dövrü. Bu dövr indiyə kimi davam etməkdədir.

İmam Sadiq (ə) buyurub: “Gözlənilən imam qiyam etməzdən qabaq bir müddət gözlərdən qeybə çəkiləcək.” Bunun səbəbini soruşduqda buyurdu: “Çünki canı təhlükədə olacaq.”

İmam Məhdi (əc) 255-ci hicri-qəməri ilində dünyaya gəlib və indiyədək ömrü davam edir.



# İmam Məhdi (ə)

